Azərbaycan.- 2020.- 29 dekabr. S. 1;4.



# İtaliya Qarabağda yeni infrastruktur qurmaqda yaxın köməkçimizdir

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan işğaldan azad olunan ərazilərində dost ölkələrin şirkətləri ilə birlikdə çalışacaq. Bu ölkələr sırasında İtaliyanın özünəməxsus yeri var.

Azərbaycan və İtaliya arasında istər siyasi, istərsə də iqtisadi münasibətlər yüksək səviyyədədir. Son illərdə hər iki ölkənin dövlət başçılarının və nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bunun bariz nümunəsidir. Bu səfərlər zamanı bir çox önəmli sənədlər imzalanıb. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi əhəmiyyətə malikdir. Sənəd iki ölkə arasında strateji tərəfdaşlığın daha yüksək səviyyəyə çatdırılmasına xidmət edir.

*Ardı 4-cü səh.*

# İtaliya Qarabağda yeni infrastruktur qurmaqda yaxın köməkçimizdir

*Əvvəli 1-ci səh.*

Dünyada hökm sürən koronavirus pandemiyası əsl dostların münasibətlərinə mane ola bilmir. Belə ki, Azərbaycan Vətən müharibəsində Qələbə qazandıqdan sonra ölkəmizə ilk nümayəndə heyəti İtaliyadan gəldi. Dekabr ayında əvvəlcə İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Bundan az sonra eləcə də İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, ölkələrimiz arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi.

Hər iki nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev İtaliya ilə Azərbaycan arasında əlaqələrin davamlı olduğunu vurğulayıb. Belə ki, bu əlaqələr siyasi, iqtisadi, eləcə də digər sahələrdə uğurla inkişaf edir. Azərbaycanın birinci ticarət tərəfdaşının İtaliya olduğunu qeyd edən dövlət başçısı iki ölkə arasında ticarət dövriyyəsinin keçən il 6 milyard dollara çatdığını bildirib. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Lakin gələcək illərdə qeyri-neft sektorunda da əməkdaşlıq və tərəfdaşlığın inkişafı üçün potensial, həmçinin məqsəd var. Odur ki, yaxın vaxtlarda Azərbaycanda İtaliyanın daha çox şirkəti fəaliyyətə başlayacaq. Prezident bildirib ki, buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, erməni vandallarının dağıtdığı şəhər və kəndlərimizin bərpasına dair böyük planlar da daxildir. Yəni yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına, digər infrastrukturun yaradılmasına ehtiyac var.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə artıq start verilib. İlk müqavilələr qardaş Türkiyənin şirkətləri ilə bağlanıb. Növbəti müqavilə isə İtaliya şirkətli ilə imzalanıb. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də Vətən müharibə zamanı bunun şahidi olduq. Xatırladaq ki, İtaliyanın millət vəkilləri Azərbaycanda səfərdə olarkən Ağdama və Gəncəyə də gediblər, erməni faşizminin torpaqlarımızda törətdiyi vəhşiliyi öz gözləri ilə görüblər.

Beləliklə, Azərbaycan-İtaliya münasibətləri hər sahədə uğurla davam edir. Bu günlərdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika infrastrukturunun yaradılması məqsədilə “Azərenerji” ASC ilə İtaliyanın “Ansaldo Energia” şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Videokonfrans formatında imzalanan müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

Bir daha qeyd edək ki, Ermənistanın 30 il ərzində işğal altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında bütün infrastruktur, o cümlədən elektrik stansiyaları, yarımstansiyalar, ötürücü xətlər dağıdılaraq yerləyeksan edilib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət qalmayıb. Laçın, Kəlbəcər, Şuşa və digər ərazilərdə isə erməni vandalları bütün enerji infrastrukturunu dağıdıblar, avadanlıqların xeyli hissəsini daşıyıb aparıblar, qalanlarını isə partladıb, yaxud yandırıblar.

Beləliklə, dost İtaliya Qarabağda yeni enerji infrastrukturu qurmaqda dəstəkçimizdir.

Xatırladaq ki, İtaliya şirkətləri indiyədək Azərbaycanın həyata keçirdiyi neft-qaz və ixrac layihələrində fəal iştirak ediblər. “Əsrin müqaviləsi” çərçivəsində aparılan tikinti-quraşdırma işlərində onların da payı olub. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biri İtaliyanın “Eni” şirkətidir. “Eni”nin orada 5 faiz iştirak payı var.

“Cənub qaz dəhlizi” isə iki ölkə arasında əlaqələri daha da möhkəmləndirib. Dəhlizin sonuncu seqmenti olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) tikintisi artıq uğurla yekunlaşıb. Bu kəmər Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədindən başlayaraq İtaliyaya çatdıracaq. Bu da o deməkdir ki, Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində daha yaxın tərəfdaş olacaqlar.

İndi artıq iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsi üçün yeni perspektivlər açılıb. Dostlarımız mənfur düşmənin xarabalığa çevirdiyi ərazilərimizdə tamamilə yenidən infrastruktur qurmağın çətinliyini bizimlə bölüşürlər. Əsl dost məhz çətin gündə bəlli olar. Prezidentimiz də bunu vurğulayıb. İtaliya dostumuz olduğunu bir daha göstərdi. Biz dostluğu qiymətləndirən xalqıq.

***Flora SADIQLI,***
***“Azərbaycan”***